

# TƏBİƏTİN MÖCÜZƏSİ - GÖYGÖL

**Bu məkanı "Azərbaycan təbiətinin incisi" adlandırırlar. Yarandığı gündən diqqət mərkəzində olan bu cənnət məkan şəninə şeirlər yazılıb, mahnılar bəstələnib, "elimizin gözəl qızı" deyə çağırılıb**

> **Bənzərsiz gözəlliyi, ruh oxşayan görünüşü, suyunun şəffaflığı ilə seçilən Göygöl 1139-cu ildə baş vermiş zəlzələ zamanı Kəpəz dağı uçqunlarının Ağsu çayının qarşısını kəsməsi nəticəsində yaranıb. Gəncənin Kəpəz rayonunda, dəniz səviyyəsindən 1556 metr hündürlükdə yerləşən gölün su səthi 80 hektar, ən dərin yeri 95 metrdir.**

## AZƏRBAYCANIN ƏN GÖZƏL TƏBİƏT MUZEYİ...

Dünya səyahətçiləri hövzəsi və ətrafı ilə birgə Azərbaycanın ən gözəl təbiət muzeyi sayılan bu açıq gözəllik "mücrüsü" haqda maraqlı fikirlər söyləyiblər. 1912-ci ildə buranı ziyarət etmiş rusiyalı səyahətçi Sakalov 1913-cü ildə Rusiyada keçirilən "Təbiətsevərlər və həkimlərin 12-ci qurultayı"nda Göygölün təmiz havası, gözəlliyi, turizmin inkişafı üçün çox əlverişli olduğu haqda məlumat verib. Mütəxəssislər arasında müzakirələr aparılıb. 1925-ci ildə Göygölün ətrafında eyniadlı Dövlət Təbiət Qoruğu yaradılıb və bura uzun müddət Azərbaycanda ilk "dövlət qoruğu" statusu ilə tanınıb. 1965-ci ilin 14 iyulunda Azərbaycan SSR Nazirlər Sovetinin 475 nömrəli Qərarına əsasən qoruq ərazisi 6739 hektar olmaqla, yenidən təşkil edilib. 2008-ci ildə isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə Xanlar, Goranboy və Daşkəsən rayonlarının inzibati ərazilərinin 12755 hektar sahəsində Göygöl Milli Parkı yaradılıb. Park ərazisinin bu qədər genişləndirilməsinin bir səbəbi də Göygöl Dövlət Təbiət Qoruğunun bazası və ona bitişik meşə və dövlət torpaqları hesabına gölün suyunun sabit saxlanılması, təmizliyinin təmin edilməsi, Kiçik Qafqazın tipik landşaftı, flora və faunasının qorunması, mühafizəsi və öyrənilməsi ilə əlaqədardır.

## GÖYGÖL MİLLİ PARKININ XƏZİNƏSİ...

Milli Parkın 5094 hektarı meşə, 109 hektarı su, yerdə qalan hissəsi isə açıq və dağlıq sahələrdir. Dağlıq sahələr xüsusi olaraq çöl heyvanlarının yaşaması, onların miqrasiyası üçün nəzərdə tutulur. Dağlıq sahələrdə daha çox bezuar dağ keçiləri olmaqla, dağ kəklikləri, ular, Qafqaz tetrası kimi nadir heyvanlar yaşayır. Bu ərazilər Milli Parkla birləşdiriləndə həmin heyvanlar burada mühafizə olunmaq üçün xüsusi "qoruq yuvaları"na salınıb.

Göygölətrafı meşə landşaftı öz təbiət zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur. 1100-2200 metr hündürlükləri əhatə edən dağ meşələri çox zəngin bitki örtüklü olub, 80-ə qədər ağac və kol növünə malikdir. Meşələrin əsas hissəsini kiçikyarpaq ağaclardan şərq fıstığı, şərq palıdı, Qafqaz vələsi, tozağacı, adi göyrüş, itiyarpaqlı ağcaqayın, cökə, iynəyarpaqlı ağaclardan qarmaqvari şam və s. təşkil edir.



## TURİSTLƏRİN SEVİMLİ MƏKANI - GÖYGÖL!..

Göygöl ilin bütün fəsillərində gözəldir; buranı "Qafqazın hər fəsilli turizmi" də adlandırırlar. Burada hətta qış aylarında xizək sürmək şəraiti yaradılıb. Deyək ki, 2008-ci ildən Göygölə milli park statusu verildikdən bəri burada ekoloji vəziyyətin yaxşılaşdırılması və turizm infrastrukturunun yenidən qurulması üçün əraziyə girişin məhdudlaşdırılması ilə bağlı qərar ləğv edilmiş, bu ilin avqustundan bu cənnət məkan öz qapılarını heyranlarının üzünə açmışdır.

Qısa müddətdə Göygöl Milli Parkının yenidən kütləvi gəzintilərə açılması, insanların istirahətinin standartlara uyğun təşkil edilməsi məqsədilə burada hər cür şərait – su-kanalizasiya xətləri çəkilib, sanitar qovşaqlar yaradılıb, hotellər, restoranlar tikilib. Qonaqlar maşınlarını xüsusi dayanacaqda saxlayıb sərbəst şəkildə gəzişə, füsunkarlıqdan zövq ala, istirahət edə bilər. Yalnız həftəsonları buraya 3500 nəfərə qədər turist üz tutur.

## QİYMƏTLƏR MÜNASİBDİR...

Ərazidə dincəlməyin qiyməti də hər bir Azərbaycan vətəndaşının maddi imkanlarına uyğundur. Göygöl Milli Parkı ərazisinə giriş 2 manatdır. Nazirlər Kabinetinin qərarı ilə tətbiq olunan bu qiymətə maşınların parkinq haqqı daxil deyil. Maşınla Milli Parka istirahətə gələnlər saatına 50 qəpik ödəməklə nəqliyyat vasitələrini dayanacaqda saxlaya bilərlər.

Bu məbləği ödəməklə istirahət zonasına manqal və samovar kimi yükləri daşımadan, eko-sistemə ziyan vurmadan, ərazini zibilləmədən rahat şəkildə istirahət etmək mümkündür. Bircə qalır nadir su incilərimizdən biri Göygöl ətrafında istirahət edərkən elementar qaydalara riayət edib, flora və faunaya ziyan verməmək!

Göygöl Milli Parkının inzibati binası Toğanalı kənd EATS-dən çəkilən telefonla və internetlə də təmin olunub. Rayon ərazisində telefon və internet xidmətlərinin ən yüksək səviyyədə təmini üçün tədbirlər davam etdirilir. Tezliklə burada GSM tipli taksofonların quraşdırılması da nəzərdə tutulur ki, bu da turistlərin telefon və internet xidmətlərinə olan tələbatını tamamilə ödəyəcək. ❖

Fəxriyyə Abdullayeva



“Bu ərazidə Göygöldən başqa 17 xırda göl də var ki, onlardan bəzilərinin adı xalq arasında çox tanınır: Maralgöl, Zəli, Qara, Güzcü, 2-ci Zəligöl, Ördək, Quş, Ayı, Çoban, Turist və s. Hər birinin özünəməxsus gözəlliyi olan bu göllərdən ölçüsünə görə ən böyüyü Maralgöldür. Maralgölə tamaşa etmək istəyənlər ilin günləri qədər – 365 pilləkən qalxmaq əziyyətinə də qatlaşmalıdırlar...

“Ərazidə turistlərin ailəvi istirahət etməsi, milli menyumuzun ayrılmaz atributu olan kabab çəkmək üçün xüsusi köşklər qurulub. Köşklərdə manqal, samovar, su, stol, stul, boşqabdan tutmuş, zibil yeşiyinə qədər hər şey var. 12 nəfərin eyni vaxtda istirahəti üçün təqdim olunan köşkü səhərdən axşama qədər kirayələmək olar. 1 nəfər üçün kirayə haqqı 4 manata yaxındır.